Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Layihənin istiqaməti:
"İctimai və dövlət maraqlarının müdafiəsi"

# Ədəbiyyatımızın söz və fikir zadəganı

## "Onun hər bir əsərində bir dünya var"

**İndi Hüseyn Cavidin əsərləri xalqa hava-su kimi lazımdır. Təkcə ədəbi baxımdan deyil, həm də fəlsəfi, elmi baxımdan lazımdır... Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır.**

**Heydər ƏLİYEV**
**Azərbaycan xalqının ümummilli lideri**

Azərbaycan xalqı dünya ictimai fikir və mədəniyyət tarixinə çoxsaylı görkəmli şəxsiyyətlər bəxş etmişdir. Bu görkəmli şəxsiyyətlərdən biri də böyük romantik sənətkar Hüseyn Caviddir. Onun çoxcəhətli və zəngin yaradıcılığı humanist ideallara xidmətinə görə, ön sıralarda dayanmaqdadır.

Hüseyn Cavid Rasizadə 1882-ci il, oktyabrın 24-də Naxçıvan şəhərində anadan olub. Onun atası dövrünün tanınmış rövzəxanı olan Molla Abdulla əslən "sahibmənsəb ziyalılar yurdu" kimi tanınan Şahtaxtı kəndindən idi. Valideynləri Cavidin ruhani olmasını istəyir, gözəl səsi olan bu balacanın şöhrətli rövzəxan olacağına inanırdılar. Buna görə də Cavid digər sənətkarlarımızın yaşadığı taleyə bənzər olaraq, ilk təhsilini mollaxanadan başlayıb. Amma Cavid bu dövrdə öz müəllimlik şöhrəti ilə tanınan görkəmli pedaqoq Məhəmməd Tağı Sidqinin "Tərbiyə" məktəbində təhsil almaq həvəsində idi. Elə bu həvəsin və inadkarlığın nəticəsi idi ki, anasının ona hədiyyə etdiyi təzə köynəyi almaqdan imtina etmiş, həyətlərindəki tut ağacında axşamlayaraq, öz etirazını bildirmişdi. Görkəmli pedaqoqun mahir natiqlik qabiliyyətinin təsiri ilə atası Molla Abdulla öz fikrindən daşınaraq, Cavidin "Tərbiyə" məktəbində təhsil almasına razılıq vermişdi. Bu mənada, görkəmli pedaqoq M.T.Sidqinin məktəbindən çıxan çoxsaylı şəxsiyyətlərdən biri də Azərbaycan ədəbiyyatında öz geniş şöhrəti ilə böyük zirvələrdən birini tutan Hüseyn Cavid idi. Cavidin sonralar İranda "Talibiyyə" məktəbi və Türkiyədə aldığı təhsil də onun dünyagörüşünün formalaşmasında xüsusi izlər qoymuşdur.

Azərbaycan ədəbiyyatında romantizm cərəyanının qüdrətli nümayəndələrindən biri və bayraqdarı olan Hüseyn Cavid çoxcəhətli və zəngin yaradıcılığa malikdir. Yaradıcılığına lirik şeirlə başlayan və "Gülçin", "Salik" imzaları ilə şeirlər yazan Cavid, gözəl şair olaraq tanındı. Onun böyük istedadla yazılmış zəngin dramatik əsərləri Azərbaycan ədəbiyyatının qızıl fondunu təşkil edir. Böyük dramaturq kimi şöhrətlənən Hüseyn Cavid "Ana", "Şeyx Sənan", "Uçurum", "İblis", "Topal Teymur", "Peyğəmbər", "Xəyyam", "Səyavuş" və başqa dram əsərlərinin, "Azər" poemasının müəllifidir. Hər bir əsərində böyük humanist ideyalarla çıxış edən görkəmli dramaturq, bütün bəşəriyyətin xilası və nicatını məhəbbətdə, sülh və barışda görürdü. "Məhəbbətdir ən böyük din" fikri Hüseyn Cavidin yaradıcılıq şüarı və proqramı idi. "Din bir olsaydı yer üzündə əgər, Daha məsud olurdu cinsi-bəşər" misrası da şairin cəmiyyətin xoşbəxtliyi və firavan yaşayışı üçün irəli sürdüyü əsas humanist ideya idi.

Özünü mənsub olduğu xalqının maariflənməsi, inkişafı və azadlığına həsr edən Hüseyn Cavid həm də böyük maarifçi idi. Publisist əsər və məqalələrində, eləcə də bədii əsərlərində şair maarif, tərbiyə tərəfdarı kimi çıxış edirdi. "Türkə qılıncdan daha kəskin, ulu qüvvət, Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət" fikri böyük şairin maarifçilik şüarlarından biri idi. O, mənsub olduğu xalqının gələcəyini oxumaqda, təhsildə, tərbiyədə görür, özünün müəllimlik peşəsi ilə bu ideyalara yorulmadan xidmət edirdi.



Cavid sovet dövründə də quru, boş, hay-küylü sosializm şüar və yaradıcılıq pafosundan kənar, özünəməxsus, inandığı ideyalar işığında ədəbi fəaliyyət göstərirdi. Onun "Topal Teymur", "Peyğəmbər", "Xəyyam", "Səyavuş" pyesləri, "Azər" poeması məhz bu dövrün məhsulu olsa da, bu əsərlərdə sosializm şüarlarından fərqli olaraq, ictimai həqiqət olan sülhə, humanizmə, ədalətə inam və çağırışlar yer tuturdu. Dövrünün yalançı ideoloji kampaniyasına uymayan Cavid öz sənət idealına sədaqət göstərərək ədəbiyyat tarixində "söz və fikir zadəganı" olaraq qaldı. Repressiya qurbanı olan Cavid öz yaradıcılıq idealı ilə ədəbiyyat üfüqlərində əbədi olaraq yaşadı. Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinə qədər unudulan Hüseyn Cavid əsl bəraətini də məhz ədəbiyyatımızın böyük hamisi ulu Ümummilli Liderdən aldı. Məhz bu böyük şəxsiyyətin xalqına bağlılığı və sənətə sonsuz sevgisinin işığında Hüseyn Cavid bəraət alaraq, xalqının milli sərvəti kimi təqdim və təbliğ edildi. 24 oktyabrın Cavid Poeziya Günü olaraq qeyd edilməsi də, bu böyük ədibə olan ehtiramın bariz ifadəsidir.

Müxtəlif vaxtlarda söz sənətimizin Nizami, Nəsimi, Xətai, Füzuli, Vaqif, M. F. Axundzadə, Aşıq Ələsgər, C.Məmmədquluzadə, H.Cavid, N.Nərimanov, C.Cabbarlı, S.Vurğun, R. Rza və digər böyük nümayəndələrinin, "Kitabi-Dədə Qorqud" kimi monumental eposun, qiymətli abidənin öyrənilməsi və təbliği ilə əlaqədar görülən misilsiz və hərtərəfli işlər bu gün minnətdarlıqla xatırlanır.

Ulu öndərimizin böyük qayğıkeşliklə həyata keçirdiyi misilsiz xidmətlər içərisində Azərbaycan xalqının dahi övladı Hüseyn Cavidin nəşinin uzaq Sibirdən doğma vətəni Naxçıvana gətirilməsi, ev-muzeyinin yaradılması, türbəsinin ucaldılması, əsərlərinin çoxsaylı tirajlarla çapı, təbliği və başqa işlər xüsusi əhəmiyyətlə qeyd edilməlidir. 37-ci illərin repressiya qurbanı olmuş Hüseyn Cavidə göstərilən bu qayğı vətənpərvər bir övladın böyük fədakarlıqla xalqına və millətinə göstərdiyi əvəzsiz bir xidmət idi. Doğrudan da, 1981-ci ildə qəbul edilmiş həmin tarixi qərar Hüseyn Cavidin sanki xalqı üçün yenidən doğuluşu, yenidən var olması demək idi. Görkəmli ədibin dövlət səviyyəsində yubileylərinin qeyd olunması, müxtəlif elmi, ədəbi-bədii tədbirlərin keçirilməsi, Bakı və Naxçıvan şəhərlərində ustad sənətkarın abidələrinin ucaldılması, xatirə muzeylərinin yaradılması, vaxtilə ədibin yaşadığı binaya xatirə lövhəsinin vurulması, yubiley medalının hazırlanması, pyeslərinin respublika teatrlarının repertuarlarına yenidən daxil edilməsi, Naxçıvanda "Cavid Poeziya Teatrı"nın yaradılması, mütəfəkkir söz ustadının əsərlərinin dörd cilddə nəşri, onun haqqında monoqrafiyaların, xatirə məcmuələrinin nəşri, həyat və yaradıcılığını əks etdirən salnamənin hazırlanaraq ədəbi ictimaiyyətə çatdırılması, seçilmiş əsərlərinin, sənət yolunu əks etdirən tanıtma kitabçasının başqa dillərə tərcümə olunaraq çap edilməsi və digər tədbirlər böyük şair-dramaturq Hüseyn Cavid şəxsiyyəti, sənətinə göstərilən yüksək qayğı və ehtiramın ifadəsidir. Birmənalı və qətiyyətlə demək olar ki, dahi lider Heydər Əliyevin fədakar əməyi sayəsində Cavidin cənazəsinin qalıqlarının uzaq Sibirdən gətirilərək, Naxçıvan şəhərində torpağa tapşırılması kimi bir hadisəyə nəinki rast gəlinməmişdi, hətta tam məsuliyyətlə demək olar ki, keçmiş SSRİ-də buna bənzər addım atmağa heç bir siyasi xadim cəsarət etməmişdir. Belə çətin təşəbbüsün irəli sürülməsi və baş tutması son dərəcə böyük siyasi iradə, yenilməz qətiyyət tələb edirdi və bunu yalnız və yalnız əsl xalq adamı, xalqının atası, mənəvi lideri olan dahi şəxsiyyət Heydər Əliyev gerçəkləşdirə bilmişdir. Hətta bunu da xüsusi olaraq xatırlatmaq lazımdır ki, ümummilli lider Heydər Əliyev rəhbər vəzifədən uzaqlaşdırıldıqdan sonra Hüseyn Cavidin yubileyi ilə əlaqədar qərarda nəzərdə tutulan çoxsaylı vəzifələrin həyata keçirilməsi tamamilə unuduldu və yaddan çıxdı. Məhz həmin məsələlərin rəsmi olaraq gündəmə yenidən gəlməsi və bu vəzifələrin tamamlanması uzun illər sonra yenə də xalqın böyük oğlu Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra baş tutdu. Blokada məngənəsində yaşayan Naxçıvanda Hüseyn Cavidin yubileyinin keçirilməsi ulu öndərin bütün digər sahələrlə yanaşı, ədəbiyyatı, mədəniyyəti də heç vaxt unutmadığını bir daha əyani şəkildə göstərirdi. Həmin tarixi çıxışında dahi rəhbər Cavidin cənazəsinin qalıqlarının Sibirdən gətirilərək, məhz Naxçıvanda dəfn olunmasının hansı zərurətdən yarandığını açıqlayaraq, demişdir: ***"Ona görə yox ki, o, burada - Naxçıvanda doğulub, ona görə ki, burada onun məzarının üzərində böyük bir məqbərə, mavzoley ucalsın. Bu, bir ziyarətgah olsun. Qədim Naxçıvan diyarında böyük memarımız Əcəmi Naxçıvaninin yaratdığı mavzoleylə yan-yana yeni bir mavzoleyi də 800 il sonra bugünkü nəsillər yaratsın. Hüseyn Cavid belə bir məqbərəyə layiq adamdır".*** Bütün bunlar ulu öndərin Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, habelə ədəbiyyatımızın böyük korifeyi Hüseyn Cavid şəxsiyyəti və sənətinə verdiyi misilsiz qiymətin ifadəsi idi. Ümummilli liderimiz Hüseyn Cavid irsinin öyrənilməsi və təbliğinin əhəmiyyətini vurğulayaraq, demişdir: ***"Bizim hamımızın borcu, xüsusən müəllimlərin, məktəblilərin, gənc nəsli tərbiyə edənlərin borcu ondan ibarətdir ki, Hüseyn Cavidin əsərlərini hamıya çatdırsınlar, xüsusən bizim gənclərə. Məktəblərdə Hüseyn Cavidin əsərləri xüsusi yer tutmalıdır. ...Çünki onun hər bir əsərində bir dünya var və bu barədə bizim müəllimlərimizin üzərinə çox böyük vəzifə düşür".***

Ümumiyyətlə, Hüseyn Cavidin xatirəsinin əbədiləşdirilməsi, əsərlərinin nəşri, tədqiqi, təbliği, dünyada tanıdılması istiqamətində həyata keçirilən çoxşaxəli və möhtəşəm tədbirlər dahi rəhbər Heydər Əliyev siyasətinin təntənəsidir. Hazırda ölkəmizdə ulu öndərin siyasi kursu bütün sahələrdə, o cümlədən ədəbiyyat və mədəniyyət sahəsində də uğurla həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə dahi şairin yubileylərinin qeyd edilməsi, əsərlərinin dəfələrlə nəfis tərtibatda çap olunması, əsərlərinin teatr repertuarlarında oynanılması, yaradıcılığının latın qrafikalı əlifba əsasında nəşr edilərək, bütün ölkə kitabxanalarına hədiyyə edilməsi və digər işlər ölməz ədibə qayğının dövlət siyasəti olduğunun bariz təcəssümüdür. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da Hüseyn Cavidin xatirəsinin əbədiləşdirilməsi, ədəbi irsinin tədqiq və təbliği istiqamətində ciddi işlər görülmüş və görülməkdədir. Naxçıvanda bu istiqamətdə həyata keçirilən çoxsaylı tədbirlər Hüseyn Cavid sənətinə və şəxsiyyətinə ümummilli lider Heydər Əliyev yanaşmasının, Heydər Əliyev münasibətinin yüksək səviyyədə və hərtərəfli şəkildə davamı kimi mühüm dəyərə malikdir.

**Ramiz QASIMOV,**
**AMEA Naxçıvan Bölməsinin böyük elmi işçisi,**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***